# Törədir; qonan köçər, doğan gün batar əlbət...



İndicə öyrəndim bu acı xəbəri. Sarsıldım, çünki bütün Türk Dünyasının görkəmli bir oğlu bizləri əbədi tərk etdi. Kamil Vəli Nərimanoğlunun ölümü çox gözlənilməz oldu, çünki bir həftə bundan öncə dostlarıyla, tələbələrlə görüşlər keçirmişdi və sağlam görünürdü.

Biz indiki Məhəmmədəmin Rəsulzadə adına Bakı Dövlət Universitetinin 1-ci kursunu bitirəndə (1970) Kamil müəllim Universiteti başa vurub aspiranturaya girmiş və sonralar bizdə bəzən seminarlar da aparmağa başlamışdı. Biz 1974-cü ildə Universiteti qurtaranda o, 5 il bizimlə bir qrupda oxumuş Fatma xanımla ailə qurdu, buna görə də həmişə zarafatla deyirdi ki, sizin yeznənizəm.

...Kamil müəllim Türk millətinin Məcnunu, iliyinə-sümüyünədək millətçi biriydi. Hansı ölkədə, hansı universitetdə dərs deməsindən, çalışmasından asılı olmayaraq bütün güc və enerjisini, düşüncəsini dünya türklərinin birliyinə, maariflənməsinə və inkişafına sərf edirdi, buna görə də, yanılmıramsa, bir neçə dəfə "Türklüyə xidmət" mükafatı almışdı və bu mükafatları almağa qatbaqat haqq edirdi. Əminəm ki, onun dünya türklüyünə xidmətləri incələnərək, ən yaxın zamanlarda qalın-qalın kitablarda öz əksini tapacaq.

Əziz Kamil müəllimin cismən bizi tərk etməsinə görə hamıdan öncə, bütün millətimizə və bütün Türk dünyasına, sonra isə həyat yoldaşı Fatma xanıma və övladlarına, bütün əzizlərinə dərin hüznlə başsağlığı verirəm. Allah təqsiratını bağışlaya, ruhunu şad edə və ona cənnət nəsib edə, inşallah. Amin!

***Ədalət TAHİRZADƏ***

Türk dünyasının böyük bilim adamı, müəllimimiz, görkəmli dilçi-alim və türkoloq, professor Kamil Vəli Nərimanoğlunun ölümü milli düşüncəmiz və elmimiz üçün ağır, əvəzsiz itkidir...

Allah rəhmət eləsin, ruhu şad olsun.

***Qulu MƏHƏRRƏMLİ***

Görkəmli türkçü və türkoloq alim, tələbəliyimin ən nurlu və parlaq simalarından biri, intriqalardan uzaq ziyalı, tələbələrin dostu, elmə, biliyə dəyər verən, bir çoxlarına rəğmən, sovet ehkamlarını beynimizə yeritməyən, unudulmaz yenilikçi müəllimimiz Kamil Vəli 15 dekabrda Bakıda vəfat etmişdir. Bu qış günləri Arif Acal, indi də Kamil müəllim vətənə gəlib vəfat etdilər. Allah rəhmət eləsin, yerləri cənnət olsun!

***Asif HACILI***

Kamil Vəlinin "Elin yaddaşı, dilin yaddaşı", "Elimizdən, obamızdan", "Dastan poetikası" əsərləri Zəngilandakı şəxsi kitabxanamın incilərindən idi.

Kamil müəllim baş nazirin müavini kimi, yeni yaranan müstəqil dövlətin elm və dil siyasətində mühüm rol oynadı.

Sonra isə məlum məsələlərlə əlaqədar olaraq Tükiyənin çeşidli universitetlərində dərs dedi, professor kimi ümumtürk dili və ədəbiyyatlarına öz töhfəsini verdi.

Bu günlərdə haqqımda yazılan kitabın təqdimatı sevinclə kədərin qol-boyun olduğu anlarla yaddaşımda qalacaq.

İştirakçılar çıxış etdikcə, mərhum Kamil Vəlini düşünürdüm. "Gələcəyəm təqdimata, mütləq gələcəyəm" demişdi. İşə baxın ki, təqdimatın günündə Haqqa qovuşdu. Birgə qurduğumuz planlar alt-üst oldu.

Ruhun şad olsun, əziz dost!

***Azad QARADƏRƏLİ***

Kamil Vəli Nərimanoğlu Azərbaycan oxucusuna Əlişir Nəvainin "Mühakəmətül-lüğəteyn" - "İki dilin mübahisəsi" əsərini təqdim edərkən yazırdı: "Mühakəmətül-lüğəteyn" əsərində Nəvai türkçülük ideologiyası, türk dili fəlsəfəsi ilə qarşımızda böyük bir mənzərə - panorama açır... Söhbət burada iki dilin mübahisəsindən daha çox, türk dilinin tarixi ləyaqətindən, mövqeyindən, daxili zənginliyindən gedir. Söhbət yalnız sinonim cərgə zənginliyindən, qrammatik quruluşun çevikliyindən getmir. Nəvai bir dövlət xadimi kimi siyasi yöndən yanaşaraq türk dili fenomeni üzərində dayanır..."

Türk Dil Qurumunun, Atatürk Kültür Mərkəzinin və Türk Folklor Qurumunun fəxri üzvü Kamil Vəli Nərimanoğlu Əlişir Nəvainin də, Balasağunlu Yusifin də, Lev Qumilyovun da, Kononovun da ən ciddi əsərlərini Azərbaycana qazandırmaqla öz məfkurə davasının mahiyyətini çoxdan isbatlamışdı... O, Birinci Türkoloji Qurultayın materiallarını nəşr etməklə, türkologiyada əvəzsiz işlərdən birini görmüşdü və Kamil müəllimin həmin kitabı Prezident İlham Əliyevin Türkoloji Qurultayın keçirilməsinin 80 illiyi ilə bağlı verdiyi 9 noyabr 2005-ci il tarixli Sərəncamla açılırdı.

Şəhid türkoloq Xalid Səid Xocayev haqqında 2008-ci ildə yazdığım kitabımın ilk oxucusu olmuş, kitaba gözəl bir rəy yazmışdı. Kamil Vəli Nərimanoğlu bir parça Qarabağ, bütöv Turan, milliyyət və iman duyğusunun daşıyıcısı, dilində "la ilahə illəllah" bitmiş nadir türkçülərdən idi... Əli bəy Hüseynzadənin heyranlarından idi. "Ənvər Paşa" pyesini qələmə almışdı.

Siyasət onu bizdən aldı.

Ədəbiyyat isə bizi ondan ayrılmağa qoymadı.

*Töredir; konan göçer,*
*doğan gün batar elbet.*
*Tanrı zeval vermesin devlet,*
*din ve KUR'AN var.*

Kamil Vəlinin ruhu şad olsun!

***Azər TURAN***

Xalq yazıçısı Anar

**professor Kamil Vəli Nərimanoğlunun**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.